**Skandinav köklər**
**Tur Heyerdahl**
**Skandinav köklərinin axtarışları Azərbaycana gətirib çıxarır**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 8.2 (Yay 2000)
© Azerbaijan İnternational





Son iyirmi il ərzində arxeoloq və tarixçi Tur Heyerdahl bir neçə dəfə Azərbaycana səyahət etmişdir. Hər gəlişi zaman onda öz nəzəriyyəsini sübut etmək üçün daha çox dəlil əmələ gəlir. Onun nəzəriyyəsinə görə Skandinavlar mənşəcə indi Azərbaycan adlanan məskəndən ola bilərlər.

İlk dəfə Heyerdahlda bu fərziyyə Bakıdan 30 mil aralı yerləşən Qobustan yaşayış məskənini gördükdən sonra əmələ gəldi. Qobustan özünün qaya təsvirləri ilə məşhurdur. Bu qayalarda oyulmuş oraq şəkilli qayıq şəkilləri onun doğma Norveçində rastlaşdığı qaya təsvirlərini xatırladır.

Bir neçə il sonra tədqiqatçı Norveç və Azərbaycan arasında digər bir əlaqə ilə rastlaşdı. Norveç mifologiyasında deyilir ki, Skandinav allahı Odin Roma işğalından qaçmaq üçün öz camaatı ilə birgə Norveçə Aser adlanan yerdən köçmüşdü. 13-cü əsr tarixçisi Aserin harada yerləşdiyini təsvir etmişdi. Bu təsvir Azərbaycanın yerləşdiyi yerə uyğun gəlir: Qafqaz dağlarından və Qara Dənizdən şərqdə.

Bu mifik hekayə yoxsa tarixdirmi? Azərbaycana ən son gəlişi zamanı, yəni 1999-cu il may ayında Heyerdahl öz nöqteyi nəzərini ictimai görüşdə aydınlaşdırdı. Aşağıda Heyerdahlın məruzəsi verilmişdir. Bundan başqa məqalə çapa getməmişdən əvvəl o özü şəxsən bura bəzi qeydlərini əlavə etmişdir.

Zənnimcə elm inkişaf etdikcə daha aydın görünəcək ki, bizim bir-birimizlə ümumiliklərimiz bir neçə on il bundan əvvəl düşündüyümüzdən də çoxdur. Bu gün mən Qobustan mağaralarında oldum. Bu qaya təsvirlərini ilk dəfə olaraq görən zamandan (bir neçə il əvvəl) qamışdan düzəldilmiş gəmiləri əks etdirən petroqliflər mənim diqqətimi cəlb etmişdi. Qobustandan qayıdarkən mənə dedilər ki, bu gün çıxış etməliyəm. Mənə bildirdilər ki, Azərbaycanla əlaqəm və bu əlaqənin necə yarandığı haqda danışmalıyam. Mənim bu mövzü üzərində hazırlaşmaq üçün yalnız yarım saata yaxın vaxtım var idi və ümidvaram ki, düşündüklərimi sizə çatdırmaq üçün mənə yarım saat vaxt verəcəksiniz.

Azərbaycana ilk gəlişim 1981-ci ildə oldu (qeyd: o, həmçinin 1994, 1997 və 1999-cu illərdə də Azərbaycana səfər edib). O vaxtlar bura Dəmir Pərdədən kənarda yaşayan çox az səyahətçilər gələrdi. Məni Azərbaycan Elmlər Akademiyası dəvət etmişdi. Azərbaycan Elmlər Akademiyasının niyə məhz məni dəvət etməsi məni çox düşündürürdü və mən sonradan anladım ki, o vaxt çox nadir bir vəziyyətdə idim. Belə ki, mən Nyu York Elmlər Akademiyasının üzvü idim və eyni zamanda Sovet Elmlər Akademiyası tərəfindən Fəxri Doktor adına layiq görülmüşdüm. Mən xalqlar arasında sədlərə inanmırdım. Mən siyasi partiyalar deyil, insanlara inanırdım.

O zaman mən bütün dünya alimləri ilə—həm Şərq, həm də Qərb alimləri ilə mübahisə aparırdım. Çünki, mənim fikrimcə özümüzü sivilizasiyalı sayan bizlərin düşündüyündən də çox əvvəl xalqlar arasında sülh əlaqələri mövcud olmuşdur. Zənnimcə sivilizasiyanın yaranmasından çox əvvəl çay və okeanlar vasitəsilə gəmilərlə əlaqə yaradılırdı. Əsrin əvvəlində heç kim inanmırdı ki, kimsə insanların 5000 il əvvəl istifadə etdikləri növ gəmiləri idarə edə bilər. Beləliklə mən dünyanın hər yerində—Dəmir Pərdənin hər iki tərəfində yaşayan alimlərlə okean vasitəsilə miqrasiya nəzəriyyəm üzərində mübahisə aparır və vaxtımın çoxunu elmi nəşrlərdə mənə qarşı olan tənqidlərə cavab verməklə keçirirdim. Rusiyada bu tənqidlərin tərcüməsini mənə göndərən dostlarım var idi. Mən onlara cavab verdim və cavabım rus dilində nəşr olundu. Əlbbəttə ki, buna bir qədər vaxt sərf olundu.

Bir gün mən Moskvada Sovet Elmlər Akademiyasının prezidenti professor Keldışdan qəribə bir məktub aldım. O fəzaya ilk Sputnik buraxdığına görə Dəmir Pərdənin hər iki tərəfində məşhur idi. O məni Moskvaya gəlib öz nəzəriyyəmi Sovet alimləri qarşısında  müdafiə etməyə dəvət edirdi. Mən dəvəti qəbul etdim və Moskvaya yollandım. O vaxt bu ərazi dünyanın mən yaşadığım hissəsində məşhur deyildi və burada bütün Akademiyaya müraciət etmək mənim üçün çox vacib idi.

Sualları prezident Keldış özü təşkil etmişdi və bu düz və ədalətli mübahisə idi. Ölkəni tərk etməmişdən əvvəl mən Moskvadakı Lomonosov Universiteti tərəfindən Fəxri Doktorluq dərəcəsinə layiq görüldüm. Doktor Keldış məndən soruşdu: “Gəlsənə gələcək ekspedisiyalarından bəzilərində Rusiya və Sovet İttifaqından olan insanlarla əlaqə yaradasan?”

İndi isə izn verin bir qədər də bir alim kimi öz keçmişim haqda danışım. Çünki, prezident Keldış hər bir alimi Moskvaya dəvət etməzdi. Səbəb Qobustanda qaya üzərində çəkilmiş qayıqlara bənzər qayıqlar idi.

Mən Oslo universitetində biologiyadan dərs almışam. Tələbə ikən mən Sakit okeanının mərkəzində Polineziyada yerləşən Fatu-Hiva adasına arxeoloji ekspedisiyaya getmişdim. Mən düz okeanın dərinliklərindən əmələ gələn bu adada həyatın necə yarandığını tədqiq etməli idim. Milyon illər əvvəl bu ada lava şəklində qaynayırdı. Lakin ilk Avropalı tədqiqatçılar ora gələndə orada artıq hər cür bitki, heyvan və hətta insanlar da var idi. Bu 1938-ci ildə baş vermişdi.

Bu məni düşünməyə vadar etdi: ilk adamlar okeanda necə səyahət edirdi? Avropalılar okeanların heç birində insan tərəfindən məskunlaşmamış bir dənə olsun belə adaya rast gəlməmişdilər. İnsan yaşaması mümkün olan hər bir ada artıq insanlar tərəfindən məskunlaşmışdı. Sakit okeanda yerləşən minlərlə ada və eləcədə Hind okeanındakı adalar da əhaliyə məxsus idi. Atlantik okeanı adaları—Kanar adaları və Karib adaları da əhali tərəfindən məskunlaşmışdı. Beləliklə mən ilkin gəmiçiliklə maraqlanmağa başladım.

Tarixçilərə Şübhə ilə Yanaşarkən

O vaxt alimlər deyirdi ki, Kolumbdan əvvəl heç bir Amerika hindusu Amerikanı tərk edə bilməzdi və eləcə də Arktikadan Berinq boğazı vasitəsilə keçmək istisna olmaqla digər bir yolla heç bir insan Kolumbdan əvvəl Amerikaya gedə bilməzdi. Mən məhz bu zaman anladım ki, elmin müxtəlif sahələrində çalışan alimlər üçün əməkdaşlıq etmək vacibdir. Universitetdə mən biologiya, coğrafiya və fiziki antropologiya üzrə təhsil almışdım və bioloji cəhətdən dəqiq bilirdim ki, bəzi bitkiləri Cənubi Amerikadan Polineziyaya kimsə gətirmişdi. Məsələn, yalnız Cənubi Amerikada bitən şirin kartofu. İnsan əli olmasa idi, o öz-özünə okeanı keçib gələ bilməzdi.

Tarixçi və antropoloqlar mənə bildirdi ki, Avropalılar gəlməmişdən əvvəl Cənubi Amerikada yalnız bərələr var idi. Və beləliklə mən təsəvvürümdə olan Cənubi Amerikalı hindularının düzəltdiyi bərə kimi bir bərə düzəldib dostlarımla Perudan Polineziyaya səyahət etməyi qərara aldım. 1947-ci ildə “Kon Tiki”də olan bu ilk səyahət mənim açıq okeanda kiçik gəmidə olan ilk təcrübəm idi. Ondan sonra mən arxeoloji qazıntılar təşkil etməyə başladım. Təşkil etdiyim ilk belə qazıntı 1952-ci ildə Qalapaqos adalarına oldu. Sonra 1955-1956-cı ildə Pasxa adalarına arxeoloji qazıntıya getdim. Və orada ilk dəfə olaraq mən həmin böyük oraq şəkilli gəmilərin qaya üzərində çəkildiyini gördüm. Onlar qədim Misir və Mesopotamiyada olan gəmilərlə eyni növ idilər. Məndə Şimali Afrikada erkən sivilizasiyalı əhalinin Kolumbdan daha əvvəl Atlantik okeanını keçməsinə dair fikirlər yaranmağa başladı.

Biz avropalılar adətən hər şeyi özümüzün aşkar etdiyini düşünürük. Lakin bu fikir düzgün deyil. Biz yalnız indi anlayırıq ki, biz gəlməmişdən əvvəl də hər yerdə insan var idi. Mənim antropologiya sahəsində təhsilim mənə insanların milliyətindən, irqindən və ya fiziki xüsusiyyətlərindən asılı olmayaraq bir-birinə bənzədiyini anlamaqda yardım etmişdir.

Həmçinin mən belə bir qənaətə gəlmişəm ki, bizim 5000 il bundan əvvəl yaşayan insanlardan çox fərqli olduğumuza inamımız bizi azdırır. Məncə biz tam dəqiqliklə söyləyə bilərik ki, 5000 il bundan əvvəl yaşayan insanda olan eyni genlərlə anadan oluruq. Hər bir yeni nəsil üçün biz sıfırdan başlayırıq. Texniki biliyimizi artırırıq, lakin ağlımız və zehni xüsusiyyətlərimiz dəyişmir.

Bu cəhətdən mən belə qənaətə gəlmişəm ki, piramidaları tikən Misirlilər özlərindən sonra həddən artıq yüksək səviyyəli incəsənət və texnologiya qoyub getmişlər. Onlar qamışdan düzəldilmiş qayıqları lazımsız və primitiv hesab etsə idilər onları tikməkdə davam etməzdilər. Və ona görə də mən qərara aldım ki, bizim elmi nəzəriyyələrdə nəsə səhv ola bilər. Universitetdə oxuduğum hər bir kitabda deyilirdi ki, xınaçiçəyi taxtasından düzəldilən qayıqlar suyu özünə çəkir və batır.

Və beləliklə mən bu elmi nəzəriyyələrin səhv olduğunu sübut etməyə başladım. Kon Tiki qayığı biz Polineziyaya çatanadək 101 gün suda qaldı. Misirdə Papirus İnstitutunda deyilirdi ki, papirus qamışı suyu özünə çəkir və iki həftədən sonra batır. Yenə də mən heç vaxt papirus gəmisini görməyən müasir alimlərdənsə qədim faraonlara inanmağı qərara aldım. Beləliklə mən qamışdan ilk qayığımı düzəltdim. Dünyanın müxtəlif ölkələrindən olan yeddi nəfərlə birgə biz 2 aylıq səyahətə çıxdıq. Qamışdan düzəldilmiş qayıq hələ də su üzərində qalırdı.

Qamışdan olan bu qayığı tikən Mərkəzi Afrikadakı Çad  gölündən olan Buduma balıqçıları okean dalğalarına adət etməmişdilər. Qamışları tutan kəndir qırıldı və biz qamışları itirməyə başladıq. Problem o idi ki, qamışların yarısı gəminin digər hissəsi ilə bir istiqamətdə üzmürdü. Qamışların bizdən arxada üzərək getdiyini seyr edirdik. Artıq Amerika sahillərinə çatanda mən insan həyatını təhlükədə qoymamağı, lakin yenə də cəhd göstərməyi qərara aldım. Bir ay ərzində biz gəmini yenidən kəndirlə bağlayaraq onu təmir etməyə çalışdıq. Sonda 17 köpək balığı bizimlə bərabər üzməyə başladı və biz təmir işlərini davam etdirə bilmədik. Ona görə də mən öz adamlarımdan soruşdum: “Siz yenə də gələcəksinizmi? Biz gələn il yenidən başlayacağıq.”

Beləliklə biz yenidən bu səyahətə cəhd göstərdik və 1970-ci ildə Atlantik okeanını Ra 2 adlı papirus gəmisində həmin gəmi heyəti və yapon fotoqrafı ilə Mərakeşdən Barbadosa gedərək keçdik.

Hər iki Atlantik okeanı səyahətləri zamanı mən yalnız gəmi ilə deyil,  həmçinin gəmi heyətilə də təcrübə apardım. Mən müxtəlif cür insanları—qap-qara adamları sarı və ağ adamlarla və həmçinin hal-hazırda mövcud olan ateizm də daxil olmaqla ən əsas dinlərin nümayəndələri ilə bir-birinə qatdım. Orada Şimali Amerika və Sovet Rusiyasından hərəsindən bir nəfər, bir ərəb və bir yəhudi var idi.

Biz bir-birimizlə elə yaxşı yola gedirdik ki, mən yenidən 1977-1978-cil illərdə Hind okeanında qamışdan düzəldilmiş digər bir qayıqla səyahətə çıxarkən onlar hamısı mənimlə bərabər gəldilər. “Tiqris” adlanan qamışdan düzəldilmiş həmin qayıq daha geniş idi və bu da daha çox milliyətin nümayəndələrinin bizimlə gəlməsinə imkan verirdi. Biz Dəclə çayından yuxarı Fars körfəzinə, sonra Pakistana və oradan da Hind vadisinə tərəf üzdük. Sonra isə istiqamətimizi dəyişərək Hind okeanını üzüb keçdik və müasir dünyaya daxil olmaq üçün Qırmızı Dənizin girəcəyinə gəldik. Biz 11 nəfər idik və hərəmiz bir milliyətə, dinə və ya siyasi meylə malik idik. Lakin hamımız 5 ay ərzində qamışdan düzəldilmiş dar bir gəmidə dostcasına yaşadıq.

Birləşmiş Millətlər Təşkilatından (BMT) bizə xəbər verildi ki, daha irəliləməyək. Çünki, Qırmızı Dənizin hər iki tərəfində—min il qabaq sülhsevər Şumerlər və Hind vadisi sakinlərinin Misirlilərlə mübadilə etdiyi bir yerdə müharibə gedirdi. Biz BMT-yə teleqram vurub onlara bu insanlara silah göndərilməsini

dayandırmağı məsləhət gördük. Həmin insanlar Qərblilərin gəlib müharibələri daha fəlakətli etdiyinədək yalnız qılıncla döyüşürdülər.

Azərbaycana Səfər

Beləliklə üç müxtəlif okeanda həmin üç ekspedisiyadan sonra məni Azərbaycana dəvət etdilər. Mən bura bu ölkədəki alimlərlə yaxşı əlaqələr yaratdığıma və sizin Qobustanda nəsə sensasiyalı bir şeyə malik olduğunuzu öyrəndiyimə görə gəldim. Azərbaycana buranın Elmlər Akademiyasının qonağı kimi Qobustandakı petroqlifləri görməyə gəlmişdim.

Biz Akademiyanın prezidenti ilə bu ölkəni, onun gözəl təbiətini görmək və onun həm alim, həm də fermer olan yerli sakinləri ilə tanış olmaq məqsədilə maşınla səyahətə çıxdıq. Mən Akademiyanın prezidentinin ailəsi barədə ölkəni tərk etməmişdən bir gün əvvəl öyrəndim—o, Azərbaycan prezidentinin qardaşı idi. Beləliklə mənim sizin ölkə ilə dostluğumun əsası qoyuldu.

Azərbaycanla belə dostluğa malik olduğuma görə Norveçdən Statoil şirkəti bura gələrkən məni nümayəndə heyətinə qatılmağa dəvət etdilər. Çünki mən burada bir çoxlarını tanıyırdım. Və elə o zaman da məni Qobustanda iki növ qayıq petroqlifinin olması maraqlandırdı.

Birinci səfərim zamanı  mən qədimdə Aralıq dənizində üzən qayıqlara bənzər qamışdan düzəldilmiş gəmilər haqda öyrənməyə gəlmişdim. Lakin ikinci səfərim zamanı öyrəndim ki, Azərbaycan sakinləri özlərini Azəri adlandırır. Mən məktəb illərindən xatırlayırdım ki, Norveçdə bəzi əfsanələr Norveç tarixinə elə dolaşıq şəkildə daxil olub ki, biz onların hansı hissəsinin tarix, hansının isə mifologiya olduğunu bilmirik. Lakin Norveçin sənədləşdirilmiş tarixi 800 il bundan əvvələ təsadüf edir. Ulu babalarımızın ilkin yaşadığı yerin adət-ənənəsi haqda 18-ci əsrdə İrlandiyada məlumat verilmişdi və orada deyilirdi ki, biz Aser adlı torpağın yetirmələriyik.

Erkən Skandinav Tarixi

Biz Danimarka, İsveç və Norveçdəki bir sıra hökmdar ailələri haqda öyrənirik. Lakin başlanğıcımız haqda olan bu hekayələr çox qədim olduğundan onları ciddi qəbul etmirdik. Bizə elə gəlirdi ki, bu yalnız təsəvvür, yalnız mifologiyadır. Tarixi hökmdarların əsl nəsil qolları siyahısı təqribən 800-cü ilə təsadüf edir. Beləliklə biz sonrakı 1000 il ərzində olan hökmdarlar haqda öyrənmişdik, lakin ondan əvvəlki adlarla heç maraqlanmamışdıq belə.

Lakin uşaqlıqdan yadımdadır ki, mifologiya Odin adlı allahla başlayırdı. Odindən 31 nəsil sonra ilk tarixi hökmdar gəlirdi. Odin haqda yazıda deyilir ki, o Şimali Avropaya Aser adlı torpaqdan gəlmişdi. Mən bu səhifələri yenidən oxumağa başladım və gördüm ki, bu heç də mifologiya deyil, bu əsl tarix və coğrafiyadır.

Bu hekayələri yazıya alan Snor hekayəsini Avropa, Asiya və Afrikanın təsviri ilə başlayır və onların düzgün adlarından istifadə edir. O, Cəbəllütariq və Aralıq Dənizi əvəzinə onların qədim Nors adlarını, Don əvəzinə isə onun köhnə adı Tanaisi vermişdir. Qara Dənizi isə biz bu gün adlandırdığımız kimi

adlandırmışdır. Beləliklə mənə aydın oldu ki, bu İldırım allahı Turla buludların arasında yaşayan allahlar ilə eyni şey deyildi.

Snorun verdiyi məlumata görə Aserlərin məskəni Qara Dənizdən şərqdə idi. Onun dediyinə görə bu hökmdar Odinin malik olduğu böyük bir ölkədir. Snor həmin ərazinin dəqiq təsvirini vermişdi: o, Qara Dənizdən şərqdə, Avropa və Asiya sərhədində olan dağ silsiləsindən şimalda yerləşir və Türklərin məskəninə tərəf cənuba uzanır. Bu mifologiya deyildi, bu planetdə—Yerdə idi.

Sonra da ən vacib hissə gəlirdi. Snor deyirdi: "Odinin yaşadığı dövrdə Romalılar bu yerlərdə geniş ərazilər tuturdular. Odin onların Aser torpaqlarına tərəf gəldiklərini eşidəndə öz kahinləri, rəhbərləri və bəzi adamları ilə birgə Avropanın şimal hissəsinə getməyi qərara aldı."

Romalılar insandır, onlar bu planetdəndir və mifik xarakter deyildirlər. Həmçinin mən Qobustana gələrkən üzərində Roma yazıları olan daş salnamə gördüyümü xatırlayırdım. Mən Azərbaycan Elmlər Akademiyası ilə əlaqə yaratdım. Məni həmin yerə apardılar və mən yazının dəqiq nə dediyini öyrənə bildim.

Bu yazının nə vaxt yazıldığını məntiq işlətməklə öyrənmək mümkündür. Çox güman ki, o, eramızın 84-cü ilindən sonra, 97-ci ilindən əvvəl yazılıb. Əgər bu yazı Snorun məlumatı ilə eyni vaxta təsadüf edirsə, onda bu o deməkdir ki, Odin Skandinaviyaya eramızın ilk əsrinin ikinci yarısında getmişdir. Sonra mən Norveçi bir krallıqda birləşdirən hökmdarın babasına qədər olan hökmdarlar nəslinin nümayəndələrini saydım. Çünki belə bir məlumatı əldə etmək mümkündür—təqribən eramızın 830-cu ili.

Antropologiyada biz hər bir hökmdar nəslinin 25 il hakimiyyətdə olmasını fərz edirik. Müasir dövrdə nəsil 30 ilə qədər uzana bilər, lakin orta hesabla əvvəllər bir nəslin hökmranlığı 25 il sürürdü. 31 nəsli 25 ilə vurduqda dəqiq olaraq eramızın birinci əsrinin ikinci yarısını əldə etmiş oluruq. Bu da Romalılar tərəfindən daş üzərində yazılmış həmin yazıların təqribən 1800 il əvvəl İslandiyada yazılmış tarixlə eyni vaxta düşməsinin sübutudur.

Hamımıza məlumdur ki, şimal adamlarını Qafqazlı adlandırırlar. Burada tarix, arxeologiya, coğrafiya və fiziki antropologiya birləşir.

Bu mövzu ətrafında tədqiqat apardıqca mən daha çox inanıram ki, planetin bu hissəsi kimsənin düşündüyümüzdən daha vacib rol oynamışdı. Hal-hazırda mən əməkdaşımla birgə kitab üzərində çalışıram və biz müşahidələrimizi təsvir edərək kitabın artıq yarısını yazmışıq.

Sarı Saçlı Mumiyalar

Bununla bərabər bizim 11 ölkənin Elmlər Akademiyası ilə əlaqələrimiz var. Biz heç nəyi nəzərdən qaçırmaq istəmirik. Ən təəccüblü kəşf Kommunist ölkəsi olan Çinlə əlaqə yaradarkən üzə çıxdı. Onlar Çinin çox içərilərində yerləşən Karim səhrasında sarı saçlı mumiyalar tapmışdılar. Həmin mumiyalar soyuq iqlim və duzlu torpaqda o qədər yaxşı qalmışdı ki, onların dərisinin və saçının rəngini görmək

olardı. Bu çin arxeoloqlarını təəccübləndirmişdi, çünki həmin mumiyalar heç də Monqoloid deyildi; çin arxeoloqları belə güman edirdilər ki, mumiyalar Vikinqlər idi.

Lakin mən Vikinqlərin Çinin içərilərində səhralarda olmasının səbəbini anlaya bilmirdim. Çin arxeoloqları radio-karbon il hesablamasını icra etdikdən sonra müəyyənləşdirdilər ki, mumiyalar eramızdan əvvəl 1800-1500-cü illərə aid olan Nordik növünə aiddir. Lakin Vikinq dövrü eramızın 800-cü illərində başlamışdı. Bu zaman aydın oldu ki, bu mumiyalar Çinə gələn Vikinqlər deyil. Burada məna əlaqəsi qırılırdı. Və yenidən Qafqaz səhnəyə bərabər miqrasiya mərkəzi kimi daxil oldu.

Lakin hekayə burada bitmir. Bu mumiyaların əynində toxunma paltar var idi və bu paltarların rəngi və toxunma naxışları səciyyəvi növə malik idi. Çinlilər özləri mumiyaları tədqiq etdilər və sonra da paltarları tədqiq etmək üçün Amerikalı ekspertlər dəvət etdilər. Onlar da öz növbəsində toxunma və rəngin İrlandiyadakı Keltlərə səciyyəvi olduğunu müəyyən etdilər. Lakin bu anlaşılmaz idi. Sonra biz İrlandiya ilə əlaqə saxlayaraq onların saqalarını əldə etdik. Onların yazılı saqalarında deyilir ki, onların əcdadları Skiflər idi. Və yenidən onların kökləri bura—Qafqaza gəlib çatırdı.

Bu yalnız başlanğıcdır, çünki əlaqədə olduğumuz Elmlər Akademiyalarından aldığımız məlumat bu qədərdir. Mən hal-hazırda xırdalıqlara getməyəcəyəm, lakin eyni zamanda elə bir heyranedici arxeoloji dəlil tapmışam ki, artıq heç bir şübhə qalmır.

Mən belə bir nəticəyə gəlirəm ki, Azərbaycan bir çox istiqamətə adam göndərən və bir çox istiqamətdən adam cəlb edən çox vacib bir mərkəz olmuşdur. Sizdə Romalıların bura gəlişinə səbəb olan metal var idi. Lakin sizin məskən həm də sivilizasiya təkamülünün mərkəzi olmuşdur. Qobustanda olan petroqliflər də bunu sübut edir.

Bir şey aydındır: gəmiçilik sivilizasiyadan əvvəl yaranıb. Əvvəllər bizə elə gəlirdi ki, sivilizasiya əvvəl yaranıb və insanlar sivilizasiyanın yüksək səviyyəsinə yetişdikdən sonra gəmilər tikməyə başlayıb. Lakin bu həqiqətə uyğun deyil. Əksinə insanlar ilk olaraq okeanda hərəkət edə bilən gəmilər düzəltmişlər. Bu da onlara bir-biri ilə əlaqə saxlayaraq mübadilə etməyə və bir-birindən öyrənməyə imkan verdi. Sivilizasiya da əlaqə və sülh şəraitində olan əməkdaşlıq nəticəsində inkişaf etdi.

———

Tərcümə: Gülnar Aydəmirova
Veb üçün hazırlayan və redaktə edən: Arzu Ağayeva